S.C.Mehrəliyeva, M.Q.Aslanov, T.Ə.Əmirəliyeva
ATU-nun əczaçılıq texnologiyası, iqtisadiyyatı və təşkili kafedrası

# UROLOJİ XƏSTƏLİKLƏRİN MÜALİCƏSİNDƏ İSTİFADƏ OLUNAN FİTOPREPARATLARIN ROLUNA DAİR

Tibb və əczaçılıq elminin qarşısında duran aktual məsələlərdən biri də uroloji xəstəliklərin müalicəsində istifadə olunan yeni dərman vasitələrinin yaradılmasıdır.

ÜST-ün məlumatına görə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə ümumi xəstəliklərin strukturasında uroloji xəstəliklər 5-6 % təşkil edir. Bu xəstəliklər bütün yaş qruplarında özünü biruzə verir. Xəstəliyin əmələ gəlməsinə ekoloji, sosial-iqtisadi və tibbi – demoqrafik amillərin təsiri istisna deyildir [ 5,7 ].

Son ədəbiyyat məlumatlarına görə böyrək xəstəlikləri 7 əsas qrupa ayrılır: 1) immun nefropatiya (qlomerulonefrit, sistemli xəstəliklər və s.); 2) yoluxucu –iltihabi (pielonefritlər, böyrək vərəmi və s.); 3) metabolik nefropatiya (amiloidoz, diabetik nefropatiya və s.); 4). toksiki nefropatiya (dərmanla, intoksikasiyalı, radiasiyalı və s.); 5) ikincili nefropatiya (elektrolit mübadiləsinin pozulması, qan dövranı çatışmazlığı, interstisial nefrit); 6) damar nefropatiyası (hamiləlik nefropatiyası, bədxassəli hipertoniya); 7) anadangəlmə böyrək xəstəlikləri (anamoliya, qenetik nefropatiya, enzimopatiya) [ 8 ].

Uroloji xəstəliklərin müalicəsində antibiotiklər, antibakterial vasitələr, spazmolitiklər, qeyri-narkotik analgetiklərin tətbiqi bəzən orqanizmdə xoşagəlməz fəsadların yaranmasına səbəb olur. Lakin, onu da qeyd etmək lazımdır ki, bu xəstəliklərin müalicəsində qida rejiminə düzgün əməl etməklə yanaşı, heç bir əlavə təsiri olmayan dərman bitkiləri, bitki yığıntıları, fitoçaylar, fitopreparatların işlədilməsi daha effektli nəticələrə gətirib çıxarır. Belə fitovasitələrin istifadəsi haqqında məlumatlar olduqca qədim tarixə malikdir.

Böyrək və sidikçıxarıcı yolların xəstəlikləri zamanı bir sıra dərman bitkiləri istifadə olunur [10 ] və aşağıdakı kimi qruplaşdırılır:

- *Sidikqovucu və iltihab əleyhinə* – adi gecəvər, ağ akasiya, adi mərcangilə, tozağacı (növləri), quş buğdası, adi dazıotu, meşə çiyələyi, qırmızı yonca, qarğıdalı, adi ardıc, bahar xoruzgülü, iyli kərəvüz, adi ayıqulağı, iyli şüyüd, adi lobya, alabəzək bənövşə, çöl qatırquyruğu, adi mayaotu, adi qıtıqotu, adi kasnı, adi qaragilə, cənnət alması;
- *Uratolitik*- adi zirinc, kəndalaş, çin limonu, gicitkən (növləri), qırmızı boyaqotu, qarğıdalı saçağı, üçbölümlü üçbarmaq;
- *Oksalatolitik*- qara kəndalaş, adi mərcangilə, dərman imbiri, bataqlıq quşüzümü, dərman bədrənci, istiot nanə, cəfəri, adi şam, adi lobya, adi razyana, ətirli bənövşə, dərman adaçayı;
- *Fosfatolitik* - iynəli dəvətikanı, quş buğdası, hündür andız, böyük pitraq, qırmızı boyaqotu, adi ardıc, ətirli yasəmən;
- *Sidiyin kolloid strukturunu bərpa edənlər* - çöl qatırquyruğu, quş buğdası;





- *Nefroprotektorlar*- tozağacı (növləri), göy göyümçiçək, dərman çuğunduru, hamar herniyar, dərman mərəcüyüdü.

Uroloji xəstəliklərin müalicəsində bəzi kombinə olunmuş fitopreparatlar: sistenal, olimetin, fitolizin, urolesan da tətbiq edilir.

Böyrək və sidik yolları xəstəliklərinin müalicəsində bir sıra yığıntılar da işlədilir [ 1,2,3]. Cədvəl 1-də bəzi yığıntıların, onların tərkibi və qəbul qaydaları, istifadəsi əks etdirilmişdir.Uroloji xəstəliklərin müalicəsində tətbiq olunan yığıntılar.

Cədvəl 1

| № | Yığıntının tərkibi | Hazırlanma texnologiyası | Qəbul qaydası və dozalanması | Farmakoloji təsiri |
|---|---|---|---|---|
| 1. | Fruct.Juniperi com. 60,0<br>Fruct. Foeniculi 20,0<br>Rhiz.cum Rad.Liquritiae 20,0 | 1 çay qaşığı qatışıq üzərinə 200 ml qaynar su töküb, bir neçə dəqiqə qaynadılıb, süzülür | Gündə 3-4 dəfə hər dəfə 1 stəkan qəbul edilir. | Böyrəklərin və sidik yollarının iltihabi proseslərində sidikqovucu və iltihabı aradan qaldırıcı vasitə kimi işlənir |
| 2. | Herb.Equiseti 15,0<br>Herb.Virqaurea 20,0<br>Fol.Betulae 30,0<br>Herb.Urticae 30,0 | 1 çay qaşığı qatışıq üzərinə 200 ml qaynar su töküb, sulu dəmləmə hazırlanır. | Gündə 3-4 dəfə hər dəfə 1 stəkan qəbul edilir. | Diuretik təsirli vasitə kimi işlənir |
| 3. | Fol.Vitis-ideae 20,0<br>Fol.Uvae ursi 50,0<br>Herb.Orthosirhoni stam. 30,0 | Göstərilən qatışıqdan 10,0:200,0 nisbətində həlim hazırlanır. | Gündə 3-4 dəfə ,hər dəfə 50-70 ml qəbul edilir. | Diuretik təsirli vasitə kimi işlənir |
| 4. | Rad.Ononidis 25,0<br>Rad. Retroselini 25,0<br>Rhiz.cum Rad.Liquiritiae 25,0<br>Fruct.Juniperi com. 25,0 | Göstərilən qatışıqdan 10,0:200,0 nisbətində həlim hazırlanır. | Gündə 3 dəfə 50 ml qəbul edilir. | Sidikqovucu vasitə kimi işlənir |
| 5. | Flor.Calendulae 20,0<br>Fol.Urticae 10,0<br>Rad.Ononidis 15,0<br>Herb.Millefolii 20,0<br>Fruct.Foeniculi 10,0<br>Herb.Equiseti 10,0<br>Fol.Betulae 15,0 | Göstərilən qatışıqdan 10,0:200,0 nisbətində sulu dəmləmə hazırlanır. | Gündə 3-4 dəfə 50-70 ml qəbul edilir. | Böyrək və sidik yollarının iltihabi proseslərində iltihabı-götürücü və sidikqovucu vasitə kimi kimi işlənir |
| 6. | Herb.Equiseti 30,0<br>Rhiz.Tormentillae 30,0<br>Fol.Plantaqinis 40,0 | 10,0:200,0 nisbətində isti sulu dəmləmə hazırlanır. | Axşamlar 150-180 ml qəbul etməli | Sidik yollarının iltihabi proseslərində iltihabı aradan qaldıran vasitə kimi işlənir |
| 7. | Fol.Betulae 50,0<br>Fruct.Rozae cin. 25,0<br>Rad.Ononidis 25,0 | Göstərilən qatışıqdan 10:200,0 nisbətində su-lu dəmləmə hazırlanır | Gündə 3 dəfə 50-70 ml qəbul edilir | Sidikqovucu vasitə kimi |
| 8. | Herb.Equiseti 100,0<br>Herb.Asperulae 100,<br>Rad.Bardanae 100,0<br>Fol.Urticae 100,0<br>Flor.Sambuci 100,0 | 1/2 xörək qaşığı qatışıq üzərinə qaynar su töküb, sulu dəmləmə hazırlanır | Gündə 3 dəfə 50 ml qəbul edilir | Urat daşlarına qarşı istifadə edilir. |
| 9. | Rad. Rubiae tinct.20,0<br>Rad. Ononidis15,0<br>Fol.Betulae10,0<br>Herb. Ortosiphoni stam.15,0<br>Flor.Chamomillae 15,0<br>Sem.Anethi 15,0 | Qatışıqdan 10,0:200,0 nisbətində sulu dəmləmə hazırlanır. | Gündə 3-4 dəfə 100-200 ml qəbul olunur | Böyrək daşı xəstəliyində istifadə edilir |

Hal-hazırda dünyanın bir çox ölkələrində uroloji xəstəlikləri müalicə etmək üçün BFƏ (bioloji fəal əlavələr) – fitoçaylar da geniş tətbiq olunur [6] . Bəzi Fitoçayları istehsal edən ölkələr, onların tərkibləri, hazırlanma texnologiyaları və s. cədvəl 2-də verilmişdir.

Cədvəl 2

Böyrək xəstəliklərində yüngül sidikqovucu və iltihab əleyhinə təsir göstərən BFƏ Fitoçaylar

| № | İstehsal edən ölkə, buraxılış forması | Tərkibi | Farmakoloji təsiri | Hazırlanma texnologiyası | Qəbul qaydası |
|---|---|---|---|---|---|
| 1. | «Violetta-Oniks-1», Rusiya, paketlərdə | Qara qarağatın yarpaq və budaqları,quşarmudunun meyvəsi, gicitkənin yar-paqları, dazıotunun otu | Yüngül sidikqovucu vasitə | « xörək qaşığı (8-10q) qaynar suda dəmlənir, 20 dəqiqə sax-lanılır və süzü-lür | Gündə 3 dəfə yeməkdən əv-vəl hər dəfə 100 ml olmaq-la qəbul edilir. |
| 2. | Fitoçay «Sibirskiy travnik oçihaöhiy», Rusiya, paket | Beşyarpağın budaqları, öküzboğan otu, tozağacı tumurcuqları, çobanyas-tığının çiçəkləri, itburnu-nun meyvələri | Yüngül sidikqovucu vasitə | 1 paket 150 ml qaynar suda 5-6 dəqiqə dəmlə-nir | Gündə 3-6 dəfə qəbul edilir |
| 3. | «İvan Kuzmiç№ 5», Polşa, filtr-paket | Zəncirotunun yarpaq və kökləri, tozağacının yar-paqları, qatırquyruğu otu, lobyanın meyvəsi | Yüngül sidikqovucu vasitə | 2 paketin üzə-rinə 1stəkan so-yuq su tökülür və qaynadılır | Gündə 3-4 dəfə qəbul edilir |
| 4. | «HerbarinB», Rusiya, filtr-paket | Tozağacının yarpaqları, nanənin yarpaqları, mər-cangilənin yarpaqları. it-burnu meyvələri, dazıotu-nun otu | Yüngül sidikqovucu vasitə | 1 filtr – paketin üzərinə 200ml isti su əlavə edi-lir 20-30 dəqiqə dəmlənir | Yeməkdən 30 dəqiqə əvvəl gündə 2 dəfə 1 stəkan qəbul edilir. |
| 5. | «Siston- 2000» ,Rusiya, filtr-paket | İtburnu meyvələri, toz-ağacı və nanə yarpaqları, su bibəri otu, murdarça qabığı, dəniz kələmi, biyan kökü | Yüngül sidikqovucu vasitə | 1 paketin üzə-rinə 100ml qay-nar su əlavə edilir, 15 dəq. ərzində dəmlənir | Yeməkdən 30 dəqiqə əvvəl gündə 2 dəfə qəbul edilir. |
| 6. | «Raymon», Çin, paket | Yaşıl çay, yemişanın meyvəsi, kasnının meyvəsi, mandarin və apelsinin qabığı, paxim göbələyi | Yüngül sidikqovucu vasitə | 1 paketin üzə-rinə 1 stəkan qaynar su əlavə edilir və dəmlə-nir | Yemək vaxtı gündə 3-4 dəfə qəbul edilir |
| 7. | «Bruzven», Rusiya, filtr-paket | Tozağacı yarpaqları,nanə yarpaqları, mərcangilə yarpaqları, dazıotunun otu | Yüngül sidikqovucu vasitə | 1 filtr –paketin üzərinə 1/2 stəkan qaynar su əlavə edilir 15-20 dəqiqə dəmlənir. | Yemək zamanı gündə 3 dəfə 0,5 stəkan qəbul edilir. |
| 8. | «Ruçek», Rusiya, paket | Nanə və ya bədrənc yarpağı, gicitkən yarpağı, dazıotunun otu, mərcan-gilənin yarpaq və budaq-ları:, su bibərinin otu, itburnu meyvələri | Sidik yollarının iltihabi xəstəliklərində | 1 paket 200 ml qaynar suda dəmlənir | Axşamlar 1stəkan qəbul edilir. |
| 9. | «Afrodita», Rusiya, paketlərdə | Çobanyastığı və gülüm-baharın çiçəkləri, şirquy-ruğu otu, palıd qabığı, adaçayı yarpaqları, bağa-yarpağı və evkaliptin yarpaqları | İltihabı aradan qaldırıcı vasitə kimi | 1 paket çay kimi dəmlənir | Yeməkdən 20 dəqiqə əvvəl gündv 3 dəfə 0,5 stəkan olmaqla qəbul edilir |
| 10. | «Adonis», Rusiya, filtr-paketlərdə | Tozağacı, mərcangilə, gicitkən yarpaqları, biyan kökü, şüyüd, itburnu meyvələri, eleuterokokk kökü, qatırquyruğu otu | İltihabı aradan qaldıran vasitə | 1 filtr –paket 1 stəkan qaynar suda dəmlənir, 15 dəqiqə saxlanır | Gündə 2 dəfə yeməkdən 20 dəqiqə əvvəl 1 stəkan qəbul edilir. |
| 11. | «Uve-miks», Makedoniya, filtr-paket | Ayıqulağı yarpaqları, qatırquyruğu otu, tozağacı yarpaqları, ononis kökü, itburnu meyvələri | İltihabı aradavn qaldırıcı vasitə | 1 filtr-paket 1 stəkan qaynar suda 15-20 də-qiqə dəmlənir, süzülür | Gündə 3-4 dəfə yemək zamanı 1 stəkan qəbul edilir. |
| 12. | «Pediya –miks» Makedoniya, filtr-paket | Çobançantasının otu, su bibəri otu, qatırquyruğu otu, dazıotunun otu, bədrənc yarpağı | İltihab əleyhinə vasitə | 1 filtr –paket 200 ml qaynar suda dəmlənir, 30 dəqiqə sax-lanılır və süz-ülür | Gündə 2 dəfə 1 stəkan qəbul edilir |
| 13. | «Marya», Rusiya, filtr-paket | İtburnu meyvələri, toz-ağacı yarpaqları, gülüm-bahar çiçəkləri, biyan kökü, çobanyastığı çiçək-ləri, üçbarmaq otu, exi-naseya otu qaraqınıq otu | İltihab əleyhinə vasitə | 1-2 filtr-paket üzərinə 200 ml qaynar su əlavə edilir, 20-30 də-qiqə dəmlənir | Gündə 1-2 dəfə yeməkdən 15 dəqiqə əvvəl qəbul olunur |
| 14. | «Fitoçay doktor A.İ.Suxanova №6», Rusiya, paket,filtr-paket | Mərcangilə yarpaqları, minyarpağın yarpaqları, quş buğdası otu, yonca otu, dağtərxunu çiçəkləri, ayıqulağı yarpaqları | İltihab əleyhinə vasitə | 1 filtr-paket 1 stəkan suda dəmlənir | Gündə 3 dəfə yeməkdən 20 dəqiqə əvvəl 1 stəkan olmaqla qəbul edilir |





Tibet təbabətinin 5000 illik tarixə malik olan qidaya əlavələri də uroloji xəstəliklərin müalicəsində istifadə olunur. Sidik yollarının iltihabi xəstəliklərinin və böyrəkdaşı xəstəliyinin müalicəsində «Xitozan» (şam yeməyindən 30 dəqiqə əvvəl 2kapsul qəbul etməli), «Xolikan» (səhər yeməyindən 30 dəqiqə əvvəl 2 kapsul qəbul etməli), «Biosink» (şam yeməyindən 1,5 saat sonra 2 kapsul qəbul etməli ), «Biokalsium »(səhər yeməyindən 30 dəqiqə əvvəl 1 kofe qaşığı 250 ml suda həll edib qurtum-qurtum içməli), «Lipid əleyhinə çay» (səhərlər yeməkdən 1 saat əvvəl 1 paketi 500 ml suda 15 dəqiqə dəmləyib, 10-15 dəqiqə ərzində qurtum-qurtum içməli); prostat vəzinin adenomasında «İkan» (səhərlər 2 kapsul 250 ml su ilə içməli), «Spirulina» ( birinci həftə ərzində nahar və şam yeməyindən 1,5 saat sonra 2 tablet 300 ml itburnu bişirməsi ilə içməli, növbəti həftə ərzində 5 tablet gündə 1 dəfə nahar yeməyindən sonra içməli) tətbiq olunur [4,9].

Ədəbiyyat məlumatlarının təhlili göstərdi ki, uroloji xəstəliklərin müalicəsi üçün Tibet təbabətinin bioloji əlavələri istisna olunmaqla, bitki xammalları əsasən dəmləmə şəklində istifadə olunur. Bu da bəzən bitkilərin düzgün tədarük olunmamasına və xəstələrin bir sıra çətinliklərlə üzləşməsinə (dolzalanmanın dəqiq olmaması və s.) səbəb olur.

Qeyd olunanlar nəzərə alınaraq, ATU-nun əczaçılıq texnologiyası, iqtisadiyyatı və təşkili kafedrasında böyrək xəstəliklərindən əziyyət çəkən xəstələr üçün qəbul qaydası və dozalanması asan olan bir sıra dərman formalarının hazırlanması istiqamətində tədqiqatlar yerinə yetirilir. Uroloji xəstəliklərin müalicəsində sınaqdan keçmiş hamar biyan, qırmızı boyaqotu, çöl qatırquyruğu,qırmızı yonca, qara kəndalaş, zirincin qatı ekstraktları əsasında fitotabletlərin, fitoşərbət, fitoşirə, fitokapsulların hazırlanmısını və tədqiqini həyata keçirdik.

XXI əsrin ən geniş yayılmış xəstəliklərindən biri olan - böyrək və sidik yolları xəstəliklərinin müalicəsi üçün yerli bitki xammalları əsasında yeni dərman vasitələrinin və qidaya əlavələrin yaradılması məqsədəuyğundur. Milli dərman bitki xammalları əsasında tədqiq edilmiş dərman formalarının gələcəkdə sənaye miqyasında istehsalı tövsiyyə edilir.

SUMMARY

ABOUT THE ROLE OF PHYTOPREPARATES IN THE TREATMENT OF UROLOGICAL DISEASES

S.J.Mehraliyeva, M.G.Aslanov, T.E.Amiraliyeva
Azerbaijan Medical University,
faculty of pharmaceutical technology, economy and the organization of pharmacy

Taking into account the importance of prescription of phytopreparates at the same line with the chemical medicamentes in the treatment of urological diseases some medicinal formes such as syrupes, juices and tablets were prepared at the Department of pharmaceutical

technology and economy of the organisation of pharmacy of the Azerbaijan Medical University.

## ƏDƏBİYYAT


1. Dəmirov İ.A., İslamova N.A.,Kərimov Y.B.,Mahmudov R.M. Azərbaycanın müalicə əhəmiyyətli bitkiləri.-B.Azərnəşr.,1988.
2. Dəmirov İ.A., Şükürov C.Z. Azərbaycanın meyvə və tərəvəz bitkilərinin müalicə əhəmiyyəti. Bakı. «Maarif», 1990.
3. Əliyev N.İ. Azərbaycanın dərman bitkiləri və fitoterapiya.-B.:Elm, 1998. S.296-300
4. Базарон Э.Г. Очерки тибетской медицины.-Улан-Уде.Эхо-Арт.1982-280 с.
5. Сбоева С.Г., Дибижева Е.В. Исследования объемов лекарственной помощи урологическим больным. // Фармация, 2000, №3, с.39-40.
6. Синев Д.Н., Марченко Л.Г., Синева Т.Д . Рецептурный справочник (Авторские прописи )Сборы из лекарственного растительного сырья-фитосборы. «Изд. ФОЛИАНТ»; 2004, с.345-347.
7. Турищев С.Н. Лекарственные растения при пиелонефрите и мочекаменной болезни // Фармация 2003, с.46-47.
8. Турищев С.Н. Фитотерапия: Учеб. Пособие для студ. мед.учеб.заведения .М.-изд. Центр. «Академия», 2003, 148-149.
9. Упор Х.,Начатой В.Г. Секреты китайской медицины. СПб ЗАО «Весь», 1992, 375с.
10. Энциклопедический словарь лекарственных растений и продуктов животного происхождения: Учеб.пособие / Под ред.Г.П.Яковлева, К.Ф. Блиновой, 2-е изд., испр. и доп. ·СПб.: Спец Лит, Издательство СП ХФА, 2002. 345-347.